**Azərbaycan Respublikasına Qayıdış Şəhadətnaməsi**

Azərbaycan Respublikası vətəndaşının pasportunun etibarlıq müddəti başa çatdığı və ya itdiyi halda, həmin vətəndaşının Azərbaycan Respublikasına geri qayıtması üçün Baş Konsulluq tərəfindən Qayıdış Şəhadətnaməsi rəsmiləşdirilir.

Konsulluq dairəsinə düşən ABŞ-ın 13 ştatından (Alyaska, Arizona, Kaliforniya, Kolorado, Havay adaları, Aydaho, Montana, Nevada, Nyu Meksika, Oreqon, Yuta, Vaşinqton və Vayominq) birinin ərazisində müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşlarının pasportlarının etibarlıq müddəti başa çatdığı halda, onların Azərbaycan Respublikasına qayıtmaları üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

1. Azərbaycan Respublikasının Los Ancelesdəki Baş Konsulluğuna aydın və səliqəli şəkildə doldurulmuş ərizə-anket təqdim edilməlidir. *Ərizə-Anketi bilavasitə* **Forms** *alt səhifəsindən əldə edə bilərsiniz.*
2. Etibarlıq müddəti başa çatmış pasportun əsli;
3. Pasport üçün çəkilən 2 ədəd fotoşəkil; Ərizəçinin etibarlıq müddəti bitmiş pasportunda yetkinlik yaşına çatmamış uşaqların şəkli olduqda, həmçinin onların 2 ədəd fotoşəkili;
4. Konsulluq əməliyyatı üçün 40 ABŞ dolları məbləğində Money Order. Həmin məbləğ Baş Konsulluğun adına yazılmalıdır *(payable to the order of Consulate General of Azerbaijan)*.

Azərbaycan Respublikası vətəndaşının pasportu itdiyi halda, onun Azərbaycan Respublikasına geri qayıtması üçün Qayıdış Şəhadətnaməsi aşağıdakı sənədlər əsasında rəsmiləşdirilir:

1. Azərbaycan Respublikasının Los Ancelesdəki Baş Konsulluğuna aydın və səliqəli şəkildə doldurulmuş ərizə-anket təqdim edilməlidir. *Ərizə-Anketi bilavasitə* **Forms** *alt səhifəsindən əldə edə bilərsiniz*;
2. Pasportun itirildiyi ərazi üzrə Polis idarəsindən onun itirilməsi ilə əlaqədar müraciətin edildiyini təsdiq edən arayış;
3. Ərizəçinin şəxsiyyətini, onun Azərbaycan Respublikasında olduğu yeri və ya yaşayış yerini, vətəndaşlığını təsdiq etməyə imkan verən sənədlər (şəxsiyyət vəsiqəsi, hərbi bilet, sürücülük vəsiqəsi, yaxud şəkilli xidməti vəsiqə);
4. Ərizəçidə 4-cü bənddə göstərilən sənədlərdən hər hansı biri olmadığı təqdirdə, onun şəxsiyyəti, Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyəti, Baş konsulluq tərəfindən ərizəçinin Azərbaycan Respublikasındakı yaşayış yeri üzrə müvafiq Daxili İşlər Orqanlarından sorğu edilməklə müəyyən edilir.
5. Pasport üçün çəkilən 2 ədəd fotoşəkil; Ərizəçi ilə birlikdə yetkinlik yaşına çatmamış uşaqların səfər etməsi nəzərdə tutulduqda, həmçinin onların 2 ədəd fotoşəkili;
6. Konsulluq əməliyyatı üçün 40 ABŞ dolları məbləğində Money Order. Həmin məbləğ Baş konsulluğun adına yazılmalıdır (*payable to the order of Consulate General of Azerbaijan*).

Azərbaycan Respublikasına geri qayıtmaq üçün Qayıdış Şəhadətnaməsi, yalnız ərizəçinin Azərbaycan Respublikası vətəndaşlığına mənsub olduğunu təsdiq edən məlumatlar konsulluq əməkdaşına məlum olduqdan sonra rəsmiləşdirilə bilər.